# Modernləşmə hərtərəfli tərəqqiyə yol açır

## Mingəçevir Dövlət Universitetinin hədəfi yeni dövrün ali təhsil müəssisəsinə çevrilməkdir

Azərbaycanda 2022-ci ilin "Şuşa ili" və 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar olaraq, 2022/2023-cü tədris ilinin payız və yaz semestrləri ali təhsil müəssisələrində çox əlamətdar hadisələrlə zəngin olmuşdur. Bu çərçivədə həyata keçirilmiş çoxsaylı və rəngarəng elmi, sosial, mədəni, maarifləndirici və beynəlxalq fəaliyyətlər universitetlərin cəmiyyət həyatında aktivliyini və ictimai nüfuzunu daha da artırmışdır. Habelə, 2022/2023-cü tədris ili Azərbaycanda təhsilalanların sosial rifahının yaxşılaşdırılmasına dövlət dəstəyi baxımından da yaddaqalandır.



Belə ki, Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamı ilə təhsilalanların təqaüdlərinin məbləği artırılmış, "Heydər Əliyev adına təqaüd" təsis edilmişdir. Eləcə də, ölkə rəhbəri tərəfindən "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramının təsis edilməsi milli ali təhsilimizin beynəlxalq ali təhsil məkanındakı mövqeyinin gücləndirilməsi nöqteyi-nəzərdən mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, "Azərbaycan - 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədlərinin təsdiq edilməsi və icrasına başlanılması müasir dövrün tələblərinə və çağırışlarına cavab verən ali təhsilin təmin edilməsi istiqamətində universitetlər qarşısında yeni vəzifələr qoyur. Həmçinin Prezidentin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" və "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" fərmanları ölkəmizdə elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədi daşıyır. Elm və Təhsil Nazirliyinin Kollegiyasının qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları" və "Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları" sənədləri də universitetlərdə strateji inkişaf və keyfiyyət təminatı mexanizmlərinin təkmilləşdirilməsi baxımından xüsusi önəm kəsb edir.

Bu baxımdan, Mingəçevir Dövlət Universitetində (MDU) bütün fəaliyyətlər milli və beynəlxalq ali təhsil məkanında müşahidə olunan inkişaf trendləri, meydana çıxan yeni çağırışlar və reallıqlar, eləcə də mövcud potensial nəzərə alınmaqla həyata keçirilmişdir. Təhsil, tədqiqat və innovasiya sahəsində qabaqcıl mövqeyi ilə fərqlənən yeni dövrün universitetinə çevrilməyi strateji hədəf olaraq müəyyən edən MDU-da idarəetmənin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması davamlı prosesə çevrilmişdir. İdarəetmədə çevik, şəffaf və rəqəmsal mexanizmlərin geniş tətbiqinə xüsusi diqqət göstərilmişdir. Bu məqsədlə, universitetdə imtahan qərargahı, apellyasiya komissiyası, imtahanlara dəstək qrupu, qaynar xətt və abituriyentlərə dəstək qrupu fəaliyyət göstərmiş, imtahanlara valideyn müşahidəsi, "Açıq qapı" günləri və "Oriyentasiya" günləri təşkil edilmiş, rektorun tələbə və əməkdaşlarla müntəzəm görüşləri keçirilmiş və İctimai Nəzarət Şurasının fəaliyyəti təmin edilmişdir. Dünya və milli ali təhsil məkanında baş verən dəyişikliklər, universitetin strateji hədəfləri, qabaqcıl yerli və beynəlxalq təcrübə, müasir və daha səmərəli idarəetmənin təmin edilməsi zəruriliyi nəzərə alınaraq, Universitetin strukturunun təkmilləşdirilməsi məqsədilə MDU-da Rəqəmsal inkişaf və layihələrin idarəedilməsi şöbəsi yaradılmış, keyfiyyət təminatı üzrə komissiya fəaliyyətə başlamışdır.

Universitetdə əmək bazarının mövcud tələblərinə uyğun yeni ixtisaslar açılmışdır. Ötən tədris ilində kadr hazırlığına və növbəti tədris ili üçün tələbə qəbuluna başlanılan 10 yeni bakalavriat ixtisası (Kompüter mühəndisliyi; İnformasiya təhlükəsizliyi; Elektrik və elektronika mühəndisliyi; Fizika müəllimliyi; Kimya müəllimliyi; Turizm bələdçiliyi; Kompüter elmləri; Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi; Dil və ədəbiyyat müəllimliyi (ingilis dili üzrə); Sosial iş), 3 yeni magistratura ixtisaslaşması (Tarix fənninin tədrisi metodikası və metodologiyası; Maliyyə nəzarəti; Ətraf mühitin mühafizə metodları və bərpası) və 2 MBA proqramı (Biznesin təşkili və idarə edilməsi (maliyyə üzrə); "Biznesin təşkili və idarə edilməsi (ümumi təyinatlı) yaradılmışdır. Bununla da universitetdə kadr hazırlığı həyata keçirilən proqramların sayı bakalavriat səviyyəsində 31-ə, magistratura səviyyəsində isə 19-a yüksəlmişdir.

MDU əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılmışdır. Təhsil işçilərinə dövlət tərəfindən göstərilən yüksək diqqət və qayğının prioritetliyi, universitetin mövcud maliyyə imkanları nəzərə alınmaqla Elmi Şuranın müvafiq qərarına əsasən, 2023-cü il yanvarın 1-dən etibarən MDU əməkdaşlarının əməkhaqları orta hesabla 12 faiz artırılmışdır.

Modernləşmə istiqamətində MDU-da davamlı şəkildə görülən işlər bu ali təhsil müəssisəsinin cəlbediciliyinin artmasına da əhəmiyyətli təsir göstərmişdir. Ötən tədris ili üçün universitetin bakalavriat və magistratura səviyyələri üzrə tələbə qəbulunda, eyni zamanda yüksək balla qəbul olanların sayında artım müşahidə edilmişdir. Belə ki, əvvəlki tədris ili ilə müqayisədə 2022/2023-cü tədris ili üçün MDU-ya tələbə qəbulu 30 faiz, 500-dən yuxarı balla qəbul olanların sayı isə 27 faiz artmışdır.

Universitetdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin zəngin irsinin elmi əsaslarla öyrənilməsi və təbliğinə prioritet əhəmiyyət verilmişdir. Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar olaraq MDU-da müvafiq Tədbirlər Planı təsdiq edilmiş, bu çərçivədə müxtəlif formatlı elmi tədbirlər və çoxşaxəli fəaliyyətlər həyata keçirilmişdir. 2023-cü il mayın 10-da MDU-da "Heydər Əliyev-100: müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasının müəllifi" mövzusunda keçirilən respublika elmi konfransı ictimaiyyətin böyük marağına səbəb olmuşdur.

MDU-nun missiyasının davamlı və daha effektiv şəkildə həyata keçirilməsinin təmin edilməsində beynəlxalq əlaqələrin genişləndirilməsi, sənaye müəssisələri ilə işbirliyinin gücləndirilməsi, müvafiq dövlət qurumları, ictimai birliklər, paytaxt və region universitetləri ilə əməkdaşlığın inkişafı, eləcə də Mingəçevir şəhəri və ətraf rayonların təhsil müəssisələri ilə birgə fəaliyyətlərin şaxələndirilməsi prioritet əhəmiyyət kəsb etmişdir.

MDU və Mərkəzi Aran Regional Təhsil İdarəsi arasında 2023-cü il üzrə birgə Tədbirlər Planı imzalanmışdır. Qarşılıqlı maraq doğuran müvafiq istiqamətlərdə regionda çoxsaylı birgə fəaliyyətlərin həyata keçirilməsini nəzərdə tutan Tədbirlər Planı Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin öyrənilməsi və təbliği məqsədilə elmi konfrans, seminar və mühazirələri, pedaqoji ixtisaslar üzrə kadr hazırlığının təkmilləşdirilməsinə dair "dəyirmi masa"ları, gənc müəllimlər və yeni təyin olunmuş məktəb direktorları üçün ustad dərsləri, şagirdlərin "Sabahın alimləri" müsabiqəsinə hazırlanmasını və digər tədbirləri özündə ehtiva etmişdir.

Qardaş Türkiyənin nüfuzlu Qazi Universiteti ilə əməkdaşlığa MDU-da xüsusi önəm verilir. 2023-cü il iyunun 19-da Ankarada Azərbaycanın Türkiyədəki səfirliyi, Qazi Universiteti və MDU-nun birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan-Türkiyə əlaqələrinin inkişafı" mövzusunda elmi konfrans keçirilmişdir. Qardaş ölkənin yenilikçi universitetlərindən olan Ankara Hacı Bayram Veli Universiteti (AHBVU) ilə əməkdaşlıq da məhsuldarlığı ilə fərqlənmiş, MDU-da turizm və iqtisadiyyat təhsilinin inkişafına hədəflənmişdir. İyunun 20-də Ankarada Azərbaycanın Türkiyədəki səfirliyi, AHBVU və MDU-nun birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan "Azərbaycan və Türkiyə: Bir millət, iki dövlət, tək yumruq" mövzusunda elmi konfrans keçirilmişdir.

İstanbul Gedik Universiteti, Qırğız İqtisad Universiteti və Tümen Dövlət Universiteti ilə əməkdaşlıq haqqında imzalanan sazişlər ali məktəblər arasında qarşılıqlı maraq doğuran sahələrdə birgə fəaliyyətlərin həyata keçirilməsi məqsədi daşımışdır. İstanbul Gedik Universiteti və KTO Karatay Universiteti ilə Qarabağ zəfərinin ikinci ildönümünə həsr olunan birgə tədbirlər reallaşdırılmışdır. Tərəfdaşlarımız olan Kiyev Milli İqtisad Universiteti, Kiyev Milli Texnologiya və Dizayn Universiteti və Qazaxıstan Milli Aqrar Tədqiqat Universitetində keçirilən beynəlxalq elmi konfranslarda MDU-nun akademik heyət üzvləri fəal iştirak etmişlər.

MDU-nun koordinatorluğu ilə "Azərbaycan ali təhsil müəssisələrində sahibkarlıq ekosisteminin gücləndirilməsi" (ENGAGE) adlı Erasmus+ layihəsinin icrasına start verilmişdir. Avropa Komissiyası tərəfindən maliyyələşdirilən layihənin əsas məqsədi Azərbaycanın müvafiq ali təhsil müəssisələrində sahibkarlıq ekosisteminin gücləndirilməsindən, akademik heyətin və tələbələrin sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsindən və innovativ yanaşmanın təkmilləşdirilməsindən ibarətdir. Büdcəsi 800 min avro olan və 3 il müddətində davam edəcək layihənin icrası zamanı Avropa İttifaqı ölkələrini təmsil edən tərəfdaş universitetlərin müsbət təcrübəsi öyrəniləcək, layihədə iştirak edən Azərbaycan ali təhsil müəssisələrinin əməkdaşları üçün çoxsaylı təlimlər təşkil ediləcəkdir.

MDU İtaliyanın Foggia Universitetinin, Xəzər Universitetinin və Azərbaycan Dövlət İqtisad Universitetinin koordinatorluqları ilə yeni Erasmus+ layihələrinə tərəfdaş olaraq qoşulmuşdur. Erasmus+ mübadilə proqramı çərçivəsində MDU-nun bir tələbəsi 2022/2023-cü tədris ilinin yaz semestri üzrə təhsilini İspaniyanın Valladolid Universitetində davam etdirmişdir.

MDU üzv olduğu Kəmər və Yol Universitetləri Alyansının Forumunda, eləcə də 2022-ci ilin sentyabrında Bişkekdə keçirilən Dünya Rektorlar Forumunda fəal təmsil olunmuşdur. Bu dövrdə MDU-nun ali təhsil sahəsində dünyanın ən böyük təsisatlarından sayılan Beynəlxalq Universitetlər Assosiasiyasına üzv qəbul olunması və bu beynəlxalq təşkilatın idarə heyətində təmsil olunması da əlamətdar hadisə kimi yadda qalmışdır.

Beləliklə, başa vurduğumuz tədris ili MDU-nun yeni dövrün universitetinə çevrilməsi yolunda növbəti uğurlu mərhələ kimi dəyərləndirilə bilər.

***Şahin BAYRAMOV,***
***Mingəçevir Dövlət Universitetinin rektoru***

# Böyük alimin zəngin irsi qiymətli sərvət kimi qorunur

> "Mustafa bəy Topçubaşovun həyat yolu, yaradıcılığı, onun bizim üçün və gələcək nəsillər üçün qoyduğu irs milli sərvətimiz və milli iftixarımızdır".
>
> **Heydər ƏLİYEV**



Avqustun 5-i Azərbaycan tibb elmi və tibb təhsili sistemlərinin, bütövlükdə Azərbaycan səhiyyəsinin ilk yaradıcıları və qurucularından biri olan dünyaşöhrətli cərrah, akademik Mustafa bəy Ağabəy oğlu Topçubaşovun doğum günüdür. Həmin gün Azərbaycan Tibb Universiteti nəzdində fəaliyyət göstərən və akademik M.A.Topçubaşova həsr olunan "Xatirə muzeyi"nin də 30 yaşı tamam olur.

Dünyaşöhrətli alim-cərrah, Əməkdar elm xadimi, akademik M.A.Topçubaşov haqqında yaxın keçmişlərdəki, qəzet və jurnal səhifələrində müxtəlif səpkili elmi, elmi-kütləvi məcmuələrdə çoxsaylı yazılar, monoqrafiya və kitablar dərc edilib, filmlər çəkilib və onların gələcəkdə də davamlı olacağı şübhəsizdir.

Muzeyin təşkili ideyası 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin sərəncamına əsasən akademik M.A.Topçubaşovun anadan olmasının 100 illik yubileyinin keçirilməsi ərəfəsində yaradılmışdır. 100 illik yubileydə möhtəşəm nitq söyləyən Ulu Öndər Heydər Əliyev M.A.Topçubaşovun Azərbaycan tibb elmini, səhiyyəsini beynəlxalq miqyasda yüksək səviyyədə təmsil etməsini qürur hissləri ilə bildirmiş, ona olan rəğbətini, ehtiram və məhəbbətini diqqətə çatdırmış, eyni zamanda digər görkəmli Azərbaycan ziyalılarının qürurverici rolundan danışmışdır.

Yubiley təntənələrinin davamı kimi həmin il ATU-nun III Cərrahi xəstəliklər kafedrasında - görkəmli alimin çalışdığı iş otağında onun "Xatirə Muzeyi"nin təntənəli açılışı olmuşdur.

Rəsmi açılışda Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və Tibb Universitetinin əməkdaşları, deputatlar, eləcə də digər qonaqlar çıxış edərək görkəmli alim və ictimai xadim, akademik M.A.Topçubaşovun həyat və fəaliyyətindən, insani keyfiyyətlərindən danışmış, onun adını əbədiləşdirən belə bir "Xatirə muzeyi"nin yaradılmasının məqsədəuyğun olduğunu bildirmiş, onu nəsillərə nümunənin, böyük şəxsiyyət Heydər Əliyev ideyalarına sədaqətin parlaq təzahürü adlandırmışlar.

Alimin qızı tibb elmləri namizədi, dosent Zemfira xanım Topçubaşova ailələri adından Ümummilli Lider Heydər Əliyevə, həmçinin "Xatirə muzeyi"nin təşkilatçılarına, qədirbilən Azərbaycan xalqına minnətdarlığını bildirmiş, təşəkkürlərini yetirmişdir.

"Xatirə muzeyi"nə rəhbərlik kafedranın əməkdaşı, akademikin sadiq və etibarlı tələbələrindən olan tibb elmləri namizədi, dosent Şəfa Əliyevə həvalə olunmuşdur. Həmin andan bu günə qədər Şəfa müəllim muzeyin həyat vəsiqəsinin əbədiliyinin təmininə öz töhfələrini vermiş, onun təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə də tanınmasına, aidiyyəti üzrə ölkəmizdə olan xarici qonaqların muzeylə tanışlığına əlverişli imkanlar yaratmışdır.

Ümumiyyətlə, "Xatirə muzeyi"ndə minə qədər unikal eksponat qorunub saxlanılır. Onlardan 550-si ekspozisiyada nümayiş etdirilir. Bu eksponatlar görkəmli alimin keçdiyi şərəfli həyat yolundan söhbət açır. Eksponatlar Mustafa bəyin Qərbi Azərbaycanda - İrəvan kişi gimnaziyasında aldığı ilk təhsil illərindən, daha sonra Kiyev Universitetinin Tibb fakültəsini bitirib Vətənə qayıtmasından, burada böyük həvəslə yaradıcı, qurucu işlərə başlamasından bəhs edir.

1937-ci ildə dünya anesteziologiya elmi tarixində ilk dəfə olaraq orijinal keyitmə üsulu - inyeksion efir-yağ narkozu - "Analgeziya üsulu"nu kəşf edən alimin bu kəşfinə və onun geniş miqyasda təcrübəyə tətbiqinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik A.V.Vişnevski adına mükafatına və xüsusi diplomuna layiq görülməsinin muzeydəki görüntüləri hamıda qürur hissləri oyadır. Onu da qeyd etmək yerinə düşər ki, bu kəşf həm də haqlı olaraq dünyəvi əhəmiyyət kəsb etdiyinə görə Beynəlxalq Nobel mükafatına təqdim edilmişdi. Lakin təəssüf ki, Azərbaycan xalqının və bütövlükdə türk millətinin mənfur düşmənləri bu sahədə də təxribata əl ataraq müxtəlif növ vasitələrdən istifadə etdilər və prosesin baş tutmasına maneə yaratdılar.

Eksponatlar Mustafa bəyin İkinci Dünya müharibəsi illərindəki fədakar fəaliyyətini də geniş surətdə işıqlandırır. Həmin illərdə Azərbaycan Xalq Səhiyyə Komissarlığı Hərbi Xəstəxanalar İdarəsinin baş cərrahı vəzifəsində çalışan alim cərrahiyyə sahəsində əldə etdiyi inqilabi yeniliklərə görə "Əməkdar elm xadimi" fəxri adına, SSRİ Dövlət (Stalin) mükafatına, "Lenin" ordeninə, "Qırmızı Əmək Bayrağı" ordeninə, həmçinin "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbə" medallarına layiq görülüb.

"Xatirə muzeyi"nin vitrinində nümayiş etdirilən eksponatlar arasında keçmiş SSRİ-nin rəhbəri olmuş İosif Stalinin Azərbaycan aliminin müharibə illərində göstərdiyi rəşadətli xidmətlərinə görə ona ünvanlandığı şəxsi təşəkkür teleqramı da diqqəti cəlb edən nadir eksponatlardandır.

1954-cü ildə akademikin fəaliyyət göstərdiyi kafedrada operasion-auditoriya təşkil etməsinə aid detallar, onun tələbələrə, gənc həkim kadrlarına qayğısı xüsusi sənəd və fotolarda əksini tapmışdır.

Dünyaşöhrətli alimin 62 illik əmək fəalyyəti dövründə yüz minə yaxın cərrahlıq əməliyyatı aparmasına, 5 cildlik "Xüsusi cərrahlıq" kitabının, 8 monoqrafiyasının, 300-dək elmi və elmi-kütləvi işlərin müəllifi olmasına aid sənədli görüntülər hər kəsi valeh edir. Bu illər ərzində Şəfa müəllimin öz təşəbbüsü ilə sevimli müəlliminin kiril əlifbası ilə qələmə aldığı 5 cildlik orijinal "Xüsusi cərrahlıq" kitabını latın qrafikası ilə yenidən çap etdirərək müasir oxucuların ixtiyarına verməsi onun xeyirxahlıq missiyasının parlaq təzahürünə çevrilib.

Akademik Mustafa bəy Topçubaşovun 1952-ci ildə Bolqarıstan Elmlər Akademiyasının müxbir üzvü seçilməsi, III dərəcəli "Kirill və Mefodi" ordeni ilə təltif edilməsi mərasimləri ilə tanışlıq, internasionallıq rəmzinə çevrilmiş alimin yaratdığı ölkələrarası inteqrasiyanın əhəmiyyəti hamıda xoş ovqat oyadır.

Mustafa bəy Azərbaycan SSR Sülhü Müdafiə Komitəsinin sədri və SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü kimi ona həvalə edilən bütün ictimai işləri şərəflə yerinə yetirmişdir. Onun Ümumdünya Sülh Şurasının gümüş medalına, Sovet Sülhü Müdafiə Komitəsinin fəxri fərmanlarına layiq görülməsini əks etdirən görüntülər "Xatirə muzeyi"nin bəzəyinə çevrilən eksponatlardandır.

Ümummilli Lider Heydər Əliyevin 1975-ci ildə akademik M.A.Topçubaşovun 80 illik yubileyində görkəmli alimə təqdim etdiyi dördüncü "Lenin" ordeni, eləcə də "Oraq və Çəkic" qızıl medalı ilə yanaşı, "Sosialist Əməyi Qəhrəmanı" kimi yüksək ada layiq görülməsi ilə bağlı sənəd və eksponatlar "Xatirə muzeyi"nin ən görkəmli yerində saxlanılır.

Muzeydə 1995-ci il oktyabrın 14-də Ümummilli Lider Heydər Əliyevin sərəncamı ilə görkəmli ictimai və elm xadimi, akademik Mustafa bət Topçubaşovun anadan olmasının 100 illik yubileyinin əsrarəngiz təntənələrlə qeyd olunmasını əks etdirən görüntüləri hamı böyük maraqla qarşılayır.

Ümummilli Liderin indiki və gələcək nəsillərə etibar etdiyi dövlət müstəqilliyimizi möhkəmləndirmək, eləcə də akademik Mustafa bəy Topçubaşov kimi nadir ziyalı şəxsiyyətlərimizin zəngin irsini qorumaq, bu böyük insanların ideyalarını yaşatmaq, onlardan lazımınca bəhrələnmək hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur.

***Mübariz ALLAHVERDİYEV,***
***ATU-nun professoru***

# Müharibədən zərərçəkən daha bir qrup ukraynalı uşaq Azərbaycana gətirilib

Ukraynadakı müharibədən əziyyət çəkmiş daha 30 nəfər ukraynalı uşaq Azərbaycana gətirilib.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin təşkil etdiyi düşərgəyə cəlb edilən uşaqlar Bakı, Şamaxı, Qəbələ və Şəki şəhərlərində 14 günlük müxtəlif reabilitasiya tədbirlərinə cəlb olunacaq.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, peşəkar psixoloqlar tərəfindən keçirilən fərdi konsultasiyalar, qrup terapiyaları, meditasiya və yoqa məşğələləri, psixososial təlimlər, ustad dərsləri vasitəsilə həmin uşaqların emosional vəziyyətlərinin stabilləşməsi və cəmiyyətə inteqrasiyaları təmin ediləcək. Onlar üçün ingilis dili kursları, ölkəmizin tarixi yerlərinə, muzeylərinə ekskursiyalar da təşkil olunacaq.